# Xocalı faciəsini dünyaya necə tanıdaq?

**Xocalı soyqırımından daha bir il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda ermənilərin silahsız, əliyalın əhaliyə qarşı törətdiyi amansız qətliam nəticəsində 613 nəfər şəhid olub. Öldürülənlərin 63 nəfəri uşaq və yeniyetmə, 106 nəfəri qadın və qız, 70 nəfəri isə ahıl adamlardır. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini itirib.**

**Xocalı bir millətin tamamilə məhvinə yönəlik bir soyqırımı idi. Bu gün Azərbaycan hakimiyyəti Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş aparır. Tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları beynəlxalq səviyyədə ifşa etmək məsuliyyəti həm də gənclərin üzərinə düşür. Bəs gənc müsahiblərimiz bu barədə nə fikirləşir? Hansı tədbirlər görülməlidir ki, Xocalı soyqırımı bütün dünya ictimaiyyəti tərəfindən tanınsın, qəbul olunsun?**

Şəbnəm MEHDİZADƏ



Billurə

### "GEC-TEZ TARİXİ HƏQİQƏTLƏR ÖZ YERİNİ TAPACAQ"

**Billurə Mikayıllı, tələbə**

Billurə fikirləşir ki, bir millətin faciəsini dünya ictimaiyyətinə çatdırmağın ən yaxşı yolu gənclərin ali təhsil alması və geniş intellektual biliyə malik olmasıdır. O deyir ki, xüsusilə xaricdə təhsil alan gənclərimiz bu məsələyə həssas yanaşmalıdır: "Xocalı bir millətin başına gələ biləcək ən pis hadisələrdəndir. Tarix sübut edir ki, belə faciələrin sayı barmaqla sayıla biləcək qədər azdır. Erməni vəhşilikləri, onların bu gün də torpaqlarımıza olan iddiaları faciənin dünya miqyasında tanınmasını vacib edir. Biz bu faciədən dərs çıxarmalı və keçmişimizi unutmamalı, unutdurmamalıyıq. Xocalı faciəsini dünya miqyasına çıxara biləcək əməli tədbirlər görməliyik. Burada əsas vəzifə biz gənclərin üzərinə düşür. Tələbələri, məktəbliləri, yeniyetmələri bu barədə geniş bilgiləndirmək lazımdır ki, onlar öz tarixi keçmişlərini unutmasınlar. Həmin hadisənin üstündən 24 il keçməsinə baxmayaraq, dünya dövlətlərinin bəziləri Xocalı soyqırımını tanımır. Bizim üçün çətin və həssas mövzu olsa da, tarix üçün 24 il kiçik bir rəqəmdir. Buna görə də daim bu haqda yeni kitablar, məqalələr, araşdırmalar təqdim etməliyik. Xüsusilə də bu tarixi faktları bir çox xarici dillərə çevirərək dünyaya öz səsimizi çatdırmalıyıq".

Həmsöhbətimizin fikrincə, zamanla bütün dünya Xocalı həqiqətlərini tanımağa məcbur olacaq: "Yuxarıda qeyd etdiyim kimi, 24 il bizə çox gəlsə də, tarix üçün kiçikdir. Gec-tez tarixi həqiqətlər öz yerini tapacaq. Bunun üçün bir qədər zaman lazımdır.

Bu gün ermənilərin arxasında dünyanın bir çox güclü dövlətləri dayanır. Ermənistan məhz xarici qüvvələrin sayəsində bu qədər vəhşilikləri həyata keçirib. Amma hər kəs bir gün bizim haqlı olduğumuzu dərk edəcək".

### "İLDƏ BİR DƏFƏ KƏDƏRLİ MÜHARİBƏ FİLMLƏRİ İLƏ İŞ BİTMİR"

**Məzahim Mustafazadə, müəllim**

Məzahim fikirləşir ki, Xocalı soyqırımını tanıtmaq üçün davamlı olaraq piar kampaniyaları hazırlanmalıdır. Dünya dövlətlərinə və ictimaiyyətə öz faciəmizi çatdırmaq üçün zamanın nəbzini tutmalıyıq: "Bu gün Xocalının 24 illiyi tamam olur. Bu haqda çox kitablar yazılıb, çox tədbirlər təşkil olunub. Lakin mən düşünürəm ki, bu üsullar bir o qədər də effektli deyil. Hər şey təbliğatın düzgün qurulmasından asılıdır. Ermənilər öz qondarma soyqırımlarını elə təbliğ ediblər ki, bir çoxları bunu soyqırımı kimi qəbul edib. Biz isə hələ də real faciəmizi qəbul etdirə bilmirik. Atalar demiş, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Deməli, haradasa nəyi isə səhv edirik. Gənc nəsil keçmiş səhvləri təkrar etməməlidir. Biz tarixi faktlarımızı bədii filmlərdə, sosial çarxlarda əks etdirməliyik ki, hər kəs bu faciəni qəbul etsin. Təkcə kitab yazmaqla iş tamamlanmır. Hamı kitab oxumur. Xüsusilə nəşrlərin çoxu yalnız Azərbaycan dilindədir. Bu isə demək olar, xarici dövlətlər üçün maraq kəsb etmir. Gənclər dünyanın bir çox beynəlxalq dillərini və xüsusilə erməni dilini öyrənməlidir. Məşhur xarici aktyorların da iştirakı ilə çəkilən bədii və sənədli filmlər dünya ictimaiyyətinə təqdim olunmalıdır".



Məzahim

Müsahibimiz deyir ki, dünya ictimaiyyətinə həqiqətləri qəbul etdirmək olar. Sadəcə, uğurlu üsullardan düzgün şəkildə istifadə etmək lazımdır: "Daima yenilik axtarışında olmalıyıq. Zaman sürətlə dəyişir və günün tələbləri də ona uyğun olaraq inkişaf edir. Biz də bu gün cəmiyyətin ayrılmaz tərkib hissəsi kimi öz həqiqətlərimizi ifadə etməyi bacarmalıyıq. İldə bir dəfə televiziya ekranlarında kədərli müharibə filmləri verməklə iş bitmir. Mətbuat və televiziya daima bu mövzunu gündəmdə saxlamağı bacarmalıdır. Demirəm hər gün Xocalıdan yazılsın. Sadəcə, sətiraltı məna ilə olsa da, öz məqsədlərimizi daim gündəmdə saxlamalıyıq. Adicə çəkilən reklam, məişət tipli teleseriallarda belə bu mövzu ictimaiyyətin nəzərinə çatdırılmalıdır".



Kafiyə

### "TARİXİ KEÇMİŞİMİZİ DƏRİNDƏN BİLMƏLİYİK"

**Kafiyə Oruc, tələbə**

Kafiyə fikirləşir ki, mühüm olan faciənin tam anlamını ilk olaraq özümüzün dərk etməsi məsələsidir. Müsahibimiz deyir ki, yalnız bundan sonra biz öz həqiqətlərimizi ictimaiyyətin diqqətinə çatdıra bilərik: "Düşünürəm ki, biz hər şeydən əvvəl tarixi keçmişimizi dərindən bilməliyik. Bu gün bir çoxları yanlış informasiyalarla tarixi həqiqətlərin məğzini dəyişdirməyə çalışır. Öz keçmişini unudan millət əzaba məhkumdur. Biz bu gün məktəblərdə gənclərə tarixi məlumatları, soyqırımlarımızı geniş şəkildə tədris etməliyik. Bir əsrdə bir neçə dəfə soyqırımına məruz qalan nadir millətlərdənik. Regionlarımızda ermənilər tərəfindən həyata keçirilən erməni vəhşiliklərinin bir çoxu bu gün, ümumiyyətlə, açıqlanmır. Tarixi faktlar və arxiv məlumatları dərindən araşdırılmalı və aşkar edilməlidir".

Həmsöhbətimiz gənclərimizn belə vacib məsələlərə münasibətdə bir qədər məsuliyyətsiz davrandığını fikirləşir. Deyir ki, burada ən mühüm olan insanın daxilindən gələn vətənpərvərlik hissidir: "Bir çoxları özünə lazım olan fənləri oxumaqla kifayətlənir. Bizim bəlamız məhz bundadır. Riyaziyyata üstünlük verənlər tarixi əhəmiyyətsiz hesab edir. Sonradan həmin gənclərin fikirlərini yanlış istiqamətə yönləndirmək isə çox asan olur. Odur ki, nə qədər yeniliyə açıq olsaq da, bir o qədər keçmişə bağlılığımızı və qan yaddaşımızı yaddan çıxarmamalıyıq".